**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.240**

**HƏBİB ALLAHVERDİYEV***

# MƏMMƏD ARAZ POEZIYASI RƏSSAMLARIN TƏXƏYYÜLÜNDƏ

*Məmməd Araz şəxsiyyətinə, poeziyası və fəlsəfəsinə Azərbaycan təsviri sənət aləmində bir çox sənətkarlar müraciət edib. Rəssamların əsərlərində Məmməd Arazın dünyası, poeziyası metal rənglərlə çəkilmiş tablolara həkk olunub. Rəssamlarımız istər rəngkarlıqda, istər tematik rəngkarlıqda, istərsə də qrafikada Şərinin maraqlı portret və şeirlərindən istifadə edərək bir-birinin gözəl və mənalı illüstrasiyalarını çəkiblər. Rəssamlarımızın yaratdığı bu tablolarda Məmməd Araz şəxsiyyətinin sonsuzluğu, çılğınlığı, sakitliyi, bəzən ehtiraslı üsyankarlığı, bəzən kövrəkliyi insanı duyğular aləminə salır. Rəsmləri maraqlı və bənzərsiz edən hər bir rəssamın şairin hansısa misrasını əks etdirməsidir. Hiss olunur ki, hər misra, hər misra yüksək sənətkarlıqla, nəfis ədəbi zövqlə seçilib. Rəssamlar burada təkcə rəsm çəkməmiş, həm də şairin yaradıcılığını öz təxəyyülünə, dünyagörüşünə, ədəbi düşüncəsinə uyğun şərh etmişlər.*

***Açar sözlər:*** *Məmməd Araz, poeziya, rəssam və rəsm əsərlər*

## Giriş

Məmməd Araz şəxsiyyətinə, poeziyasına və fəlsəfəsinə Azərbaycan təsviri sənət aləmində bir çox rəssamlarımız müraciət edib. Həqiqətən də Məmməd Araz poeziyasının və yaradıcı təxəyyülünün bədii görüntüsünü, bədii estetik obrazını yaratmaq ilk növbədə rəssamdan həm məsuliyyət, həmdə böyük bacarıq və istedad tələb edir. “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı...” deyən şairin yaradıcılığına müraciət etmiş rəssamlar, təbii ki, Məmməd Araz qədər vətən sevgisini qəlbində sığışdıra bilməsi, bunu əks etdirmək məharətinə malik olması lazımdır. Bu baxımdan rəssamlarımız bunun öhdəsindən məharətlə gəliblər. Onların əsərlərində Məmməd Araz dünyası, poeziyası, əlvan rənglərlə tablolar üzərində həkk olunub. Rəssamlarımız istər rəngkarlıq əsərlərində, istərsə də tematik tablolarda, qrafikalarda şarin maraqlı portretlərini və şerlərindən bəhrələnərək bir birindən gözəl, mənalı illusturasiyalar çəkiblər.

## Əsas təhlil

Rəssamlıqda böyük sənət əsərlərinə bir baxış məsafəsi var. Böyük sənət əsərlərinə nə qədər uzaq məsafədən baxsan o qədər də o əsər nöqsansız, bütov və möhtəşəm görünər. Məmməd Araz yaradıcılığı da məhz bu möhtəşəmliyi ilə seçilir. Məmməd Arazın fikirləri, düşüncələri Azərbaycanın istedadlı rəssamlarından biri olan Kirman Abdinovu çox təsirləndirib və onu valeh edib. Buna görədə rəssam şairin fikirlərini rənglərin dili ilə illusturasiyalarda sənətverlərə çatdırmağı qərara alıb. Belə ki, 2016 cı il aprel ayında Bakıda Vəcihə Səmədova adına Azərbaycan Rəssamlar İttifaqında və həmin ilin oktyabr ayında Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi salonunda “İsinsin azacıq bu daş duyğular” adlı fərdi sərgilərini təşkil edib. Rəssam sərgisi haqqında düşüncələrində deyirdi: “2016-cı ildə Məmməd Araza həsr etdiyim sərgim gerçəkləşdi. Sərgi böyük maraq doğurdu. Sonra şairə həsr etdiyim bütün əsərlərim “Məmməd Araz qrafik albomu” adı altında çap olundu. Bu işlər arasında ən maraqlı nümunə ölməz şairin məşhur şeiri əsasında yaratdığım “Dünya sənin, Dünya mənim, Dünya heç kimin” triptixidir. Bu əsərdə modern kubizmə yenilik gətirməyə çalışmışam.”

Biz əgər “Bu gün gərək hər anımız Vətən desin!” deyən şairin alovlu misralarının hərarətini Kirman Abdinin bədii təxəyyülünün məhsulu olan bu qrafikalardan, bu illisturasiyalardan sezə biliriksə, deməli, rəssam öz məqsədinə nail ola bilib. “Qayalara həkk olmayan söz itər, Bu bahardan o bahara iz itər”, “Mən özümlə oynadığım şahmata güldüm”, “Dünya heç kimin”, “Mən ömrümün aşrımında anlaya bildim”, “Nəçilliyim kimliyimdən gərəkli imiş”, “Şəhriyar gəlmədi”, “Fikrimin çəkisi çəkimdən ağır”, “Dartmaqda çətindir, atmaq da çətin” və başqa tablolarda rahatlıqla Məmməd Araz poeziyasının nəhayətsizliyinin və rəssam fantaziyasının çalarlarının vəhdətini görmək və sezmək mümkündür.





Kirman Abidinov Kirman Abidinov

Şəkil1. "Düşüncələr" Şəkil 2. "Mən özümlə oynadığım şahmata güldüm"

Kirman Abidinovun Məmməd Araz poeziyasına həsr olunmuş çoxlu sayda əsərləri var. Rəssam bu qrafikalarını həm ağ-qara tonda, həmdə rəngli olaraq yaradıb. Şairin şerlərinə həsr olunmuş qrafikaların əksəriyyətində biz Məmməd Araz portretini görürük. Bu portretlərdə bəzən şair gülümsəyir, bəzən düşünür, bəzən isi çox ciddi bir mimikada bizə baxır. (şək.1-2) Məmməd Araz dühasına müraciət edən rəssamlarımızdan biri də Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyevadır. O, şairi ornamentləri ilə zəngin olan xalça fonunda təsvir edib. Gözəçarpan rənglərlə çəkilən bu portretdə mülayim baxışlarla bizə baxan bir Məmməd Arzaz görürük.( şək.4)





Səyyad Məmmədov Ülviyyə Həmzəyeva

Şək. 3. "Dünya sənin, Dünya mənim, Dünya heç kimin" Şək 4. "Məmməd Araz dünyası"

Rəssamlarımızın böyük məhəbbətlə, ərsəyə gətirdikləri bu tabloların əksəriyyətində Məmməd Araz nikbindir, gülümsəyir, sabaha inamla, insanlara və dünyaya sevgiylə baxır. Sanki heç o «Dünya heç kimin» deyən adam deyil. Elə bil bu tablolardakı adam şeirin elə «Dünya mənim» hissəsində qalıb. Ümidlidir, ümid aşılayandır. O məşhur şeirdən söz düşmüşkən, həmin şeirin artıq dillər əzbəri, həyat devizinə çerilən misralarını Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Səyyad Məmmədov bir başqa gözəllikdə əks etdirib. "Dünya sənin, Dünya mənim, Dünya heç kimin" adlı əsəri Səyyad Məmmədov taxta üzərində yandırma üsulu ilə çəkib. Bu sənət əsəri şairin, həyatın faniliyi haqqındakı sözlərini ən yüksək şəkildə dəstəkləyir. (Şək.4)

Rəssamlarımızın ərsəyə gətirdikləri bu tablolarda Məmməd Araz şəxsiyyətindəki nəhayətsizlik, çılğınlıq, duruluq, bəzən ehtiras dolu üsyan, bəzən kövrəklik insanı sanki duyğular aləminə salır. Tabloları maraqlı və özünəməxsus edən cəhət, hər bir rəssamın şairin hansısa misrasını əks etdirməsidir. Hiss olunur ki, hər bir misra, hər bir beyt yüksək sənətkarlıq və incə ədəbi zövqlə seçilib. Rəssamlar burada yalnız rəsmlər çəkməklə kifayətlənməyib, həmçinin, şairin yaradıcılığını öz təxəyyülünə, dünyagörüşünə və ədəbi düşüncəsinə görə də mənalandırıb. Belə tablolardan biri də Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Həbibə Allahverdiyevanın şairin "Vəsiyyət" şeri əsasında çəkdiyi "Araz dərdi, yaxud iki rəngin çaları" adlı kompozisiyalı portretidir.

Qara cilddə çap eləyin kitabımı

Məndən sonra.

Qara ciliddə

Tünd qara.

Qoy qara kağızım olsun

O kitab dostlara, tanışlara

Mən o rəngi sevərdim:

Deyən şairin bu misralarından bəhrələnən rəssam kompozisiyada kitabı şairin sevdiyi rəngdə, qara rəngdə təsvir edib. Bildiyimiz kimi Xalq şairinin irsində Araz mövzusunun ecazkar bir bədii tutumu var. Bu mövzu şairin bütün yaradıcılığında izlənilir və qırmızı bir xətt kimi keçir. "Araz dili", "Yenə Arazı gördüm...", "Bu gecə yuxumda Arazı gördüm", "Mən Araz şairiyəm", "Arazın işıqları", "Araz yadıma düşüb", "Arazın nəğməsi" kimi şerləri buna misaldır. Bu şerlər əsasında maraqlı bir kompozisiya yaranıb. Belə ki, tabloda ön planda Məmməd Arazın portreti və aşağı istiqamətdə isə Araz çayı üzərində Xudafərin körpüsü də təsvir olunub. Bu tablo ilə rəssam şairin həmişə cənub sevdasıyla yaşayıb yaratdığını tərənnüm edib. (Şək.5)

Tabloların bəzilərində ölməz Xalq şairinin portreti varsa, bəzilərində sadəcə yazdığı misraya rəssam baxışı yer alıb. Ancaq şairin əksi olan tabloların heç birində siması, üz cizgiləri, reaksiyası eyni deyil. Onun üzünün ifadəsi də tablonun adını aldığı misranın ruhuna uyğun dəyişir. Belə ki məhrum rəssam Qədirulla Bağırovun "Məmməd Araz dogma yerlərdə" adlı əsərində olduğu kimi. Tabloda Məmməd Araz doğulub boya başa çatdığı Nursu kəndində, uca bir dağın üzərində şer səsləndirərkən təsvir edilib. "Bəlkə bu yerlərə birdə gəlmədim, duman salamat qal, dağ salamat qal…" deyən şair vətəninə çox bağlı idi. Bu tabloda doğma diyara bağlılıq, vətən sevgisi, təbiətin gözəlliklərindən həmişə söz açan bir şair siması görürük. Rəssamın digər bir əsəri isə "Məmməd Araz poertreti" adlanır. Bu əsərdə isə, şair fikirli, qayğılı, nədənsə narahat və narazı görünür. Sanki min illərin yorğunudur. Gözləri yol çəkir. Şairin maraqlı portrtlərini yaradan rəssamlardan biri isə Azərbaycan Respublikasının əməkdar rəssamı Telman Abidinovdur. "Məmməd Arazın portreti" adlı bu əsəri rəssam öz texnikasına, yardıcılıq üslubuna xas olan rənglərlə işləyib. (şək. 6)





Həbibə Allahverdiyeva — Telman Abidinov

Şək 5. “Araz dərdi, yaxud iki rəngin çaları” — Şək 6 “Məmməd Arazın portreti”

**Nəticə**

Rəssamlarımızın məharətlə yaratdığı bu tablolarda Məmməd Araz poeziyasının coşğun səsi rəssam fırçasının üsyankarlığı ilə çuğlaşıb. Bu günümüzündə bir zaman tarixə çevriləcəyi sabahı var. Bu məqamı, bu anı düşündükcə görürük ki, rəssamlarımızın yaratdığı gözəl, bənzərsiz sənət əsərləri gələcəkdə tarixə çevriləcək, fəxrlə yad olunacaqdır. Biz də rəssamımıza yaradıcılıq uğurları diləyir, sənət sevincləri arzulayırıq.

**ƏDƏBİYYAT**

1. Əsəd Quliyev. “Kirman Abidin Yaradıcılığının daha bir uğurlu səhifəsi” 525- ci qəzet. Bakı. 2016.
2. Əsəd Quliyev. “Məmməd Araz Qrafik Albom” Naxçıvan. 2017
3. Flora Xəlilzadə. “Məmməd Araz şerinin yeni ömrü” Kaspi. Bakı. 2019
5. https://medeniyyet.az

***Naxçıvan Müəllimlər İnsitutu***
***allahverdiyevhabib30@gmail.com***

**Habib Allahverdiyev**

**MAMMAD ARAZ POETRY IN THE IMAGINATION OF ARTISTS**

Mammad Araz’s personality, poetry and philosophy have been addressed by many artists in the world of Azerbaijani visual arts. In the works of artists, the world of Mammad Araz, his poetry, are engraved on paintings with metallic colors. Our artists drew beautiful and meaningful illustrations of each other, using the interesting portraits and poems of Sharin, whether in paintings, thematic paintings or graphics. In these paintings created by our artists, the infinity, craziness, calmness,

sometimes passionate rebellion, sometimes fragility of Mammad Araz's personality puts a person into the world of emotions. What makes the paintings interesting and unique is that each artist reflects some verse of the poet. It is felt that every verse, every stanza was selected with high craftsmanship and exquisite literary taste. The artists did not just draw pictures here, but also interpreted the poet's work according to their imagination, worldview and literary thought.

**Keywords:** *Mammad Araz, poetry, artist and paintings*

**Хабиб Аллахвердиев**

**ПОЭЗИЯ МАМЕДА АРАЗА В ВООБРАЖЕНИИ ХУДОЖНИКОВ**

К личности, поэзии и философии Мамеда Араза обращались многие художники мира азербайджанского изобразительного искусства. Мир поэзии Мамеда Араза запечатлен на картинах, написанных металлическими красками. Наши художники рисуют красивые и содержательные иллюстрации друг друга, используя интересные портреты и стихи Шари, будь то живопись, тематическая живопись или графика. В этих картинах, созданных нашими художниками, бесконечность личности Мамеда Араза, безумие, спокойствие, иногда страстное бунтарство, иногда хрупкость выводят людей в мир эмоций. Интересными и уникальными картины делают то, что каждый художник отражает какое-то стихотворение поэта. Чувствуется, что каждая строка, каждая строфа подобраны с высоким артистизмом и изысканным литературным вкусом. Художники здесь не только писали, но и интерпретировали творчество поэта в соответствии со своим воображением, мировоззрением и литературной мыслью.

**Ключевые слова:** Мамед Араз, поэзия, художник и картины

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 06.02.2024**
**Son daxilolma tarixi:09.03.2024**